Məktəbəqədər təhsil (Azərbaycan bölməsi)

1. 1-3 yaşlı uşaqda stresli situasiyalar və emosiyaların idarə olunması ilə bağlı hansı fikir doğrudur?

A) Uşaq stresli situasiyaların fərqini anlamır, həmişə təmkinli olur və özünü mükəmməl idarə edir.
B) Bu dövrdə uşaq stresli situasiyalarda özünü idarə etməyi öyrənir, müstəqillik tələb edir, ona bir şeyi tək başına sınamaq imkanı verildikdə belə hisslərini cilovlaya bilmir.
C) Uşaq hisslərini cilovlaya bilmədikdə onu sevdiyi məşğuliyyətdən və ya oyuncaqdan məhrum etmək lazımdır.
D) Bu dövrdə uşaqlarda heç bir stresli situasiya baş vermir, ilk yaş "böhranı" 5-6 yaşda baş verir.
E) Uşaqlar yeni mühitə yalnız böyüklərin daimi nəzarəti və qadağaları sayəsində uyğunlaşanda hisslərini cilovlaya bilirlər.

2. *Tərbiyəçi-müəllim orta qrup (3-4 yaş) uşaqlarına nağıl oxuyarkən onların diqqətinin tez yayındığını müşahidə edir.* **Metodik cəhətdən düzgün yanaşma olaraq tərbiyəçi-müəllim ilk növbədə nə etməlidir?**

A) Oxunu dərhal dayandırmadan səs tonunu çox yüksəltmək və uşaqlarda verbal ünsiyyətlə yanaşı qeyri-verbal ünsiyyət vasitələrindən istifadə etmək
B) Uşaqları yerlərində oturdub, nağılla bağlı oyuncaqları hər uşağa paylamaq və nağıla qulaq asmağa məcbur etmək
C) Nağıl oxumağı dayandırıb uşaqlara maraqlı olan başqa məşğuliyyətə keçmək
D) Uşaqların daha diqqətli dinləməsini təmin etmək üçün əsəri dinlədikdən sonra sual və tapşırıqlarını verəcəyi haqqında xəbərdarlıq etmək
E) Hiss olunmadan şəraiti dəyişərək nağılla bağlı sual vermək, əyani vəsait göstərmək və uşaqları ünsiyyət prosesinə cəlb etmək

3. İfadəli oxunun mərhələlərindən biri olan "Təəssürat mübadiləsi və oxunmuş əsərin məzmunu üzrə müsahibə" mərhələsində aşağıdakılardan hansı tətbiq olunur?

A) Əsərin oxunmasından əvvəl uşaqlarda psixoloji hazırlığın yaradılması
B) Əsərin gedişində əyani və texniki vasitələrin nümayiş etdirilməsi
C) Uşaqların öz fikirlərini bilavasitə bildirmələri, suallara cavab vermələri və yaradıcı işlərin icra edilməsi
D) Tərbiyəçi-müəllimin qoyduğu suallar və uşaqlara verdiyi əlavə məlumatlar əsasında ümumi təsəvvürlərin yekunlaşdırılması
E) Uşaqların dinləmə qabiliyyətini yoxlamaq üçün yazılı testlərin keçirilməsi

4. Lüğət işinin aparılmasına verilən didaktik tələblərə əsasən hansı fikir doğrudur?

A) Lüğət işi digər nitq inkişafı sahələrindən təcrid olunmuş şəkildə aparılmalıdır.

B) Lüğət üzrə iş yalnız bu məqsədə həsr olunmuş xüsusi məşğələlərlə məhdudlaşdırılmalıdır.
C) Lüğət işinin əhəmiyyəti artırılmalıdır və hər gün uşaqdan bir neçə sözün öyrənilməsi tələb olunmalıdır.
D) Lüğət işi digər məşğələlərdə, oyun, əyləncə, özünəxidmət və istirahət zamanı da təşkil olunmalıdır.
E) Lüğət işində rəngarəng metod və priyomlardan istifadə etmək pedaqoji baxımdan tövsiyə olunmur.

5. *Məktəbəhazırlıq qrupunda uşaqlar kiçik hərfləri dəftərdə yazarkən tez yorulur, barmaqlarında gərginlik hiss edirlər.* **Bu vəziyyətdə tərbiyəçi-müəllimin planlaşdırmasında hansı dəyişiklik daha əsaslıdır?**

A) Yazı tapşırıqlarının həcmini azaltmalı, lakin hərflərin düzgün yazılışını əsas məqsəd kimi saxlamalıdır.
B) Hərflərin yazılışını əvvəlcə iri ölçüdə məşq etdirməli, sonra dəftərdə təkrar yazmağa keçməlidir.
C) Yazı tapşırıqlarını müvəqqəti dayandırmalı, xırda motorikanı inkişaf etdirən oyun və praktik fəaliyyətlərə üstünlük verməlidir.
D) Yazı tapşırıqlarını günün əvvəlinə keçirməli, uşaqların daha az yorulduğu vaxtda yerinə yetirməlidir.
E) Yazı zamanı yaranan gərginliyi azaltmaq üçün uşaqlara daha qalın qələmlər verməli və məşq müddətini uzatmalıdır.

6. Şəklə əsasən uyğunluğu müəyyən edin:



A) Kiçik motor bacarığı - 4,2; Böyük motor bacarığı - 1,3; Sensor bacarıq – 5
B) Kiçik motor bacarığı - 4,5; Böyük motor bacarığı - 1,3; Sensor bacarıq - 2
C) Kiçik motor bacarığı - 1,2; Böyük motor bacarığı - 4,3; Sensor bacarıq - 5
D) Kiçik motor bacarığı - 3,5; Böyük motor bacarığı - 1,2; Sensor bacarıq - 4
E) Kiçik motor bacarığı - 4,1; Böyük motor bacarığı - 2,3; Sensor bacarıq - 5

7. *Oyun zamanı iki uşaq hazırladıqları tikililəri birləşdirərək körpü yaratmaq istəyir, lakin konstruksiyanın dayanıqlığını təmin edə bilmirlər. Uşaqlar müxtəlif üsulları sınaqdan keçirir, nəticələri müqayisə edir və öz aralarında müzakirə aparırlar. Tərbiyəçi-müəllim onların çətinlik çəkdiyini müşahidə edir.* **Bu vəziyyətdə oyunun öyrədici potensialını və uşaqların müstəqil problem həll etmək imkanlarını qoruyan pedaqoji yanaşma hansıdır?**

A) Uşaqlara körpünün daha dayanıqlı qurulması üçün nümunə göstərmək və həmin nümunə əsasında tikintini davam etdirmələrini təklif etmək.
B) Uşaqların seçdiyi üsulları müşahidə etmək, ehtiyac yarandıqda onların həll yollarını müqayisə etməsinə kömək edən açıq suallarla düşünmələrini dəstəkləmək.
C) Uşaqların uğursuz cəhdlərini azaltmaq məqsədilə konstruksiyanın əsas hissəsini hazırlamaq və qalan hissələri onların tamamlamasına şərait yaratmaq.
D) Oyunun məqsədini dəqiqləşdirmək üçün körpünün qurulma ardıcıllığını uşaqlarla əvvəlcədən razılaşdırmaq və icranı həmin ardıcıllıq üzrə istiqamətləndirmək.
E) Uşaqların fəaliyyətə marağını qorumaq üçün daha sadə tikinti materialları təqdim etmək və tapşırığın çətinlik səviyyəsini azaltmaq.

8. Böyük qrupda (4-5 yaş) "Musiqi alətləri" mövzusunda iki fəaliyyət həyata keçirilir.
I fəaliyyət: Uşaqlar müxtəlif alətlərin səslərini dinləyir, səsin gücünü və tembrini müqayisə edərək alətləri əlamətlərinə görə qruplaşdırırlar.
II fəaliyyət: Uşaqlar həmin alətlərdən istifadə edərək öz ritmik ardıcıllıqlarını yaradır və onları ifa edirlər.
Bu fəaliyyətlərin əsas inkişaf istiqamətləri hansı variantda düzgün müəyyənləşdirilib?

A) I — estetik və yaradıcı inkişaf; II — idrakın inkişafı.
B) I — sosial-emosional inkişaf; II — idrakın inkişafı.
C) I — fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik; II — sosial-emosional inkişaf.
D) I — fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik; II — estetik və yaradıcı inkişaf.
E) I — idrakın inkişafı; II — estetik və yaradıcı inkişaf.

9. Verilənlərdən hansı İnkişafa dair yekun hesabata aiddir?

A) Təlimin ilkin mərhələsində uşağın bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir.
B) İnkişaf məqsədləri və strategiyalarda çevik dəyişikliklərin aparılması üçün şərait yaradır.
C) Uşağın məşğələdə təlim nəticəsini nə dərəcədə mənimsədiyini ölçməyə imkan yaradır.
D) Məktəbəqədər təhsilin sonunda uşağın nailiyyət səviyyəsi müəyyən edilir.
E) Yalnız əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında aparıla bilər.

10. M.Montessori və R.Emilia təlimlərinin ortaq xüsusiyyəti hansıdır?

A) Təlim tam olaraq tərbiyəçi-müəllimin yönləndirməsi ilə aparılır.
B) Yaradıcı oyunlar və sərbəst fəaliyyətlər məhdudlaşdırılır.
C) Akademik biliklərə xüsusi əhəmiyyət verilir.
D) Təlim prosesində layihə əsaslı öyrənməyə üstünlük verilir.
E) Sərbəst şəkildə öyrənmək üçün yaradıcı mühit təmin edilir.

11. Aşağıdakılardan hansı tərbiyəçi-müəllimin refleksiv yanaşmasını göstərir?

A) "Bu işiniz tamamilə yanlışdır. Gəlin, yenidən tapşırığı etməyə cəhd edək".
B) "Biz bunu dəfələrlə etmişik, necə edəcəyinizi artıq bilməli idiniz".
C) "Gələn dəfə bu tapşırığı yerinə yetirən zaman nələri dəyişərdiniz və niyə?"
D) "Siz çox ağıllı uşaqlarsınız, amma bu dəfə tənbəllik edirsiniz".
E) "Təlimatlara əməl etmədiyiniz üçün sizə kömək etməyəcəyəm".

12. "Şəxsiyyətin alçaldılmasına, mənəvi və psixoloji duruma və sağlamlığa zərər vuran hərəkətlərin bütün formalarından, fiziki və psixoloji zorakılıq hallarından müdafiə olunmaq" hüququ hansı bənddə pozulub?

A) Tərbiyəçi-müəllim uşaqların yemək zamanı gigiyenik qaydalara riayət etməsinə nəzarət edir.
B) Tərbiyəçi-müəllim uşaqları yemək yeməyə sövq etmək üçün "kim yeməyi yeməsə,ona oyun oynamağa qadağan edəcəm" deyir.
C) Tərbiyəçi-müəllim fəaliyyət mərkəzlərinin seçilməsində uşaqların maraq, meyil və arzularını nəzərə alır.
D) Tərbiyəçi-müəllim uşaqlarla birlikdə xalçanın üzərində əyləşib kukla teatrı təşkil edir.
E) Tərbiyəçi-müəllim uşaqların idraki və davranış xüsusiyyətlərindən asılı olmayaraq ümumi oyun təşkil edir.

13. *"Valideyn övladının təhsilində bilavasitə iştirak etmək üçün təşkil olunan tədbirlərə mütəmadi olaraq qoşulmağa kifayət qədər vaxtının olmadığını bildirir".*
Hansı bənddə tərbiyəçi-müəllimin mövqeyi konstruktiv xarakter daşıyır?

A) Valideynin buna görə narahat olmamasını, pedaqoq kimi özünün bağçada uşağın hərtərəfli inkişafını təmin edəcəyini bildirir.
B) Tərbiyəçi-müəllim valideynin övladının təhsilində iştirak etməməsinin səbəbini öyrənmədən bu haqda rəhbərliyə məlumat verir.
C) Valideynə uşağının təhsilində iştirakının onun vəzifəsi olduğunu xatırladır və iş saatlarından sonra uşağa vaxt ayırmalı olduğunu bildirir.
D) Telefon, elektron poçt və digər texniki vasitələrdən istifadə edərək valideynlə əməkdaşlığı təmin etmək variantlarını müzakirə edir.
E) Övladının təhsilində valideynin rolunun digər qohumları ilə əvəzlənməsini müzakirə edir.

14. *“Uşaqlar konstruktordan qala qururlar, lakin qala bir neçə dəqiqədən sonra dağılır”.* **Tərbiyəçi-müəllim bununla bağlı necə əks-əlaqə verməlidir?**

A) "Siz onu düzgün qurmadınız. Yenidən cəhd edin".
B) "Qalanın daha uzun müddət dayanması üçün nə edə bilərik?"
C) "Biz bu qala mövzusunu keçməmişik, hələ qurmayın".
D) “Eybi yox, indi gəlin, başqa bir şey quraq”.
E) "Təlimatlara qulaq asmadığınız üçün dağıldı".

15. *Məktəbəhazırlıq qrupunda Savad təliminə hazırlıq və nitq inkişafı məşğələsində tərbiyəçi-müəllim mövzunun izahından sonra uşaqlarla sual-cavab edir. Məlum olur ki, uşaqlardan biri mövzunu tam şəkildə anlamayıb. Tərbiyəçi-müəllim uşağa mövzu ilə bağlı qaranlıq qalan məqamları müəyyən edərək ona fərdi şəkildə dəstək göstərir.* **Bu situasiya ilə bağlı verilən fikirlərdən hansı doğrudur?**

A) Tərbiyəçi-müəllim mövzu ilə bağlı geniş və hərtərəfli biliyə malikdir.
B) Yarana biləcək problemlərin müəyyənləşdirilməsi ilə bağlı işlər görülməsə də, məşğələ prosesi düzgün planlaşdırılmışdır.
C) Tərbiyəçi-müəllim məşğələ zamanı inkişafın izlənilməsi prosesini düzgün apararaq uşağın təlim ehtiyaclarını təmin etmişdir.
D) Tərbiyəçi-müəllim mövzunu izah edərkən uşaqyönümlü yanaşmanı tətbiq etmir, bu səbəbdən uşağın təlim ehtiyacları təmin olunmur.
E) Tərbiyəçi-müəllim məşğələni planlaşdırarkən təlim nəticələrini düzgün müəyyən etmədiyi üçün uşaq mövzunu anlamadı.

16. Qrupda fəaliyyət mərkəzlərini təşkil edərkən aşağıda verilənlərdən hansılara əməl edilməlidir?

1. Fəaliyyət mərkəzləri bir-birindən ayrı təşkil edilir və xüsusi materiallarla təchiz olunur.
2. Mərkəzdəki materiallar yalnız tərbiyəçi-müəllim və uşaqlar tərəfindən hazırlana bilər.
3. Mərkəzdəki materiallar həm tərbiyəçi-müəllim, həm valideyn, həm də uşaqlar tərəfindən hazırlana bilər.
4. Əl əməyi fəaliyyət mərkəzi bütün yaş qruplarında tərtib edilir və xüsusi materiallarla təchiz olunur.
5. Mərkəzdəki materiallar yalnız Elm və Təhsil Nazirliyi və məktəbəqədər təhsil müəssisəsinin rəhbəri tərəfindən təmin olunmalıdır.
6. Uşaqlar istədikləri fəaliyyət mərkəzlərini özləri seçə və orada kiçik qruplar şəklində yaşıdları ilə oynaya bilərlər.

A) 1, 3, 6
B) 2, 4, 5
C) 3, 5, 6
D) 2, 4, 6
E) 1, 4, 5

17. Uyğunlaşdırın.

1. Məşğələ zamanı uşaqlar qruplara bölünərək şəkil üzərində birlikdə işləyirlər. Onlar qrupda iş bölgüsü aparır və çəkdiklərini bir-birinə izah edirlər.
2. Bağçaya yeni gələn uşaqların kollektivə uyğunlaşmasını asanlaşdırmaq üçün tərbiyəçi-müəllim onları qrup oyunlarına qoşur.
3. Məşğələ zamanı uşaqlara müxtəlif materiallar təqdim olunur və onlara “seçdiyiniz materialdan istifadə edərək istədiyiniz konstruksiyanı qurun” tapşırığı verilir.
4. Uşaqlar gəzinti zamanı ağacların yarpaqlarının saraldığını müşahidə edir, tərbiyəçi-müəllim onlara təbiəti qorumağın vacibliyini izah edir.

a. Sosial uyğunlaşma və ünsiyyət
b. Birgə fəaliyyət və ünsiyyət mədəniyyəti
c. Ətraf aləmin dərk olunması, təbiətə və insanlara həssas münasibət
d. Müstəqil öyrənmə və sərbəst qərar qəbuletmə meyli

A) 1-a, 2-b, 3-d, 4-c
B) 1-b, 2-a, 3-d, 4-c
C) 1-d, 2-a, 3-c, 4-d
D) 1-b, 2-d, 3-a, 4-c
E) 1-c, 2-b, 3-d, 4-a

18. Uyğunluğu müəyyən edin.

1. Təfəkkür
2. Təxəyyül
3. Yaddaş

a. "Bugünkü məşğələdə yeni nə öyrəndiniz?" sualına uşaq belə cavab verir: “Baxdığımız videomaterialdan belə nəticəyə gəldim ki, qaranquşa yazın elçisi ona görə deyirlər ki, o yazın gəlişindən xəbər verir”.
b. “Ötən məşğələdə hansı quşlar haqqında danışmışdıq?” sualına, uşaq cavab verir ki, qaranquş və qarğa haqqında danışıblar. O öyrənib ki, qaranquş yazda gəlir, qarğa isə qışda isti ölkələrə köçmür.
c. “Quşlar danışa bilsəydi, nə deyərdilər?” sualına uşaq cavab verir ki, qarğa qışda ac qalmamaq üçün qoz-fındıq yığır.

A) 1-a, 2-b, 3-c
B) 1-a, 2-c, 3-b
C) 1-c, 2-a, 3-b
D) 1-b, 2-a, 3-c
E) 1-c, 2-b, 3-a

19. Cədvələ əsasən sual işarələrinin yerinə uyğun gələn fikirləri müəyyən edin.

I	II
Məktəbəqədər təhsil sahəsində uşaqların hüquqları	**Məktəbəqədər təhsil sahəsində təhsilverənlərin hüquqları**
həyat və sağlamlıq üçün təhlükəsiz şəraitdə təhsil almaq	təhlükəsiz və normal iş şəraiti ilə təmin olunmaq
keyfiyyətli qida ilə təmin edilmək	mükafatlandırılmaq və təltif olunmaq
?	?

a. məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək
b. təhsilalanları müəyyən edilmiş təhsil standartları əsasında məktəb təliminə hazırlamaq
c. təhsil prosesinin təşkili və idarə olunmasında iştirak etmək
d. təhsilalanların hüquq və maraqlarını müdafiə etmək
e. mənəvi və psixoloji durumuna zərər vuracaq informasiyadan və təbliğatdan müdafiə olunmaq

A) I – b; II – c
B) I – e; II – b
C) I – e; II – c
D) I – a; II – d
E) I – d; II – a

20. Aşağıdakılardan hansı L.Vıqotskinin “Skafoldinq” strategiyasına aid deyil?

A) Müəllim uşağa tapşırıq zamanı ipucu və istiqamət verərək onu tədricən müstəqilliyə aparır.
B) Uşaq riyazi məsələləri həll etməyi öyrənərkən tərbiyəçi-müəllim əvvəl nümunə göstərir, sonra birlikdə həll edirlər və nəhayət uşaq özü tətbiq edir.
C) Tərbiyəçi-müəllim uşağın bacarığını müşahidə etdikdən sonra tapşırığı onun səviyyəsinə uyğunlaşdırır və mərhələli dəstək verir.
D) Tərbiyəçi-müəllim uşaqlara yeni oyuncaqlar verir və özü kimin hansı oyuncaqla oynadığını müəyyən edir.
E) Uşaq yeni bacarığı öyrənərkən böyüyün dəstəyi tədricən azalır və o, işi təkbaşına yerinə yetirir.

21. Aşağıdakı situasiyalardan hansı J.Piajenin “Zehni inkişaf mərhələləri” nəzəriyyəsinin əməliyyatöncəsi mərhələsinə (2–7 yaş) aiddir?

A) Uşaq məqsədsiz şəkildə pianonun düyməsini sıxır və bu hərəkəti təkrar edir.
B) Uşaq örtünün altına gizlədilən oyuncağı axtarıb tapır.

C) Ana əl çalır, ananı təqlid edərək uşaq da əl çalır.
D) Uşaq baş verənlərə ancaq öz baxış bucağından baxır, başqalarının fikrini nəzərə almır.
E) Yad birini görən uşaq qorxaraq ağlayır və anasına tərəf qaçır.

22. *"Valideyn 5 yaşlı uşağını məktəb təliminə daha yaxşı hazırlaması üçün tərbiyəçi-müəllimdən övladına sərbəst yazı yazma və 50 dairəsində riyazi əməliyyatları yerinə yetirmə bacarıqlarını öyrətməsini tələb edir".* **Tərbiyəçi-müəllim valideynin bu təklifi ilə razılaşsa, məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən hansını pozmuş olar?**

1. Uşaqların məktəbəqədər təhsillə əhatə edilməsi səviyyəsinin yüksəldilməsi;
2. Məktəbəqədər təhsil və ibtidai təhsil arasında varislik və fasiləsizliyin təmin olunması;
3. Məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığının qorunması, psixoloji və fiziki inkişafının təmin edilməsi;
4. Sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilinin təşkili;
5. Beş yaşına çatmış uşaqların məktəbəhazırlığının zəruriliyi.

A) 3, 5
B) 2, 3
C) 1, 4
D) 1, 5
E) 2, 4

23. Təsviri incəsənət sahəsi uşaqlarda idraki inkişaf sahəsinə necə təsir edir?

A) Uşaqlarda bu fəaliyyət əsasında xırda motorika bacarıqları formalaşır, onların zövqü və emosional hissləri inkişaf edir.
B) Uşaqlarda əl-göz hərəkətlərinin düzgün koordinasiyası inkişaf edir.
C) Bu fəaliyyət əsasında uşaq başqalarının fikirlərinə hörmət və növbə gözləmə bacarıqlarına sahib olur.
D) İncəsənət materiallarından istifadə ilə bağlı bacarıqlara yiyələnirlər.
E) Uşaqlar bu fəaliyyət əsasında təcrübə aparma, qiymətləndirmə, fərz etmə kimi bacarıqlara yiyələnirlər.

24. *"Tərbiyəçi-müəllim uşaqlara şəkil üzərində olan boya ləkəsini göstərir və "Şəkildəki təsvir nəyə bənzəyir?" sualı ilə müraciət edir. İmkan yaradır ki, uşaqlar mümkün qədər çox oxşarlıq tapsınlar".* **Tapşırıq uşaqlarda hansı növ təfəkkürün formalaşdırılmasına xidmət edir?**



A) Hissi-məntiqi təfəkkür
B) Əyani-əməli təfəkkür
C) Əyani-obrazlı təfəkkür
D) Tənqidi təfəkkür
E) Riyazi-məntiqi təfəkkür

25. *Tərbiyəçi-müəllim diaqnostik dəyərləndirmə zamanı bir neçə uşağın mövzu üzrə bilik səviyyəsinin aşağı olduğunu müəyyən edir. Bu səbəbdən məşğələni keçərkən yalnız çətinlik dərəcəsi aşağı olan tapşırıqlar verir.* **Bu halda tərbiyəçi-müəllim pedaqoji prosesin təşkili prinsiplərindən hansının tələbini daha çox pozmuş olur?**

A) Şəxsiyyətyönümlülük
B) Diferensiallaşdırma və fərdiləşdirmə
C) Nəticəyönümlülük
D) Əyanilik
E) Əməkdaşlıq

26. *"Tərbiyəçi-müəllim məntiqi və riyazi təfəkkürün inkişafı məşğələsini keçərkən "2.3.2. Əşyaları forma, ölçü və sayına görə müqayisə edir" standartını reallaşdırır. O, məşğələdə mövzu ilə bağlı uşaqlarla birlikdə şeir və tapmacalar söyləyir".* **Bu zaman tərbiyəçi-müəllim hansı inteqrasiyanı həyata keçirmiş olur?**

A) İnkişaf sahəsi üstü inteqrasiya
B) İnkişaf sahələri arasında inteqrasiya
C) İnkişaf sahəsi daxilində inteqrasiya
D) Standartlararası inteqrasiya
E) Mövzulararası inteqrasiya

27. *"Fiziki mədəniyyət məşğələsini keçərkən tərbiyəçi-müəllim uşaqlarla oyun təşkil edir. Uşaqlar halqadakı ipin hər iki ucunu tutmaqla günəş şüalarına çevrilirlər. Onlar ipin uclarını buraxmadan halqanın ətrafında orta, sonra yavaş sürətlə qaçırlar. Qaçış hərəkətləri orta və yavaş sürətli yerişə keçir. Uşaqlar yavaş sürətlə addımlayarkən əllərini yuxarı qaldırıb dərindən nəfəs alıb-verirlər".* **Bu oyunu keçirməklə tərbiyəçi-müəllim fiziki mədəniyyət məşğələsinin hansı məqsədinə çatmış sayılır?**

A) Tərbiyəçi-müəllim uşaqların iplə tullanma bacarıqlarını müəyyənləşdirir.

B) Uşaqların tənəffüsü bərpa olunur, fiziki fəallığı nizamlanır.
C) Bununla ümuminkişafetdirici hərəkətlərdən fəal oyun və yarış mərhələsinə keçid edilir.
D) Göstərilən hərəkətlər isindirici sayılır və uşaqları fiziki fəallığa hazırlayır.
E) Tərbiyəçi-müəllim məşğələnin əsas mərhələsinə aid oyun keçirir və iplə əsas hərəkətlər möhkəmləndirilir.

28. Qrup və kollektiv iş formalarına aid ümumi cəhət hansılardır?
1. Hər uşağın potensial imkanlarının müəyyənləşdirilməsi üçün əlverişli iş formasıdır.
2. Bütün uşaqlar iş prosesinə cəlb olunur.
3. Uşaqlarda ünsiyyət bacarıqlarının inkişafını təmin edir.
4. Hər uşaq öz tempi ilə işləyir.
5. Daha çox fərddaxili intellektə sahib olan uşaqlar üçün əlverişli iş formasıdır.

A) 1, 4
B) 2, 5
C) 1, 3
D) 3, 4
E) 2, 3

29. Verilənlərdən hansı ədədin miqdar qiymətinə aid nümunə deyil?
A) Uşaq beş ədəd qələm aldı.
B) Uşağın iki yaşı tamam oldu.
C) Uşaq bu il birinci sinfə gedəcək.
D) Uşaq üçə qədər sayır.
E) Uşaq bir şeir öyrəndi.

30. *“Tərbiyəçi-müəllim məşğələdə “Tülkü və Hacıleylək” nağılı haqqında uşaqların fikirlərini dinlədikdən sonra onlara “Tülkü və Hacıleyləyin dostluğu niyə alınmadı?”, “Sizin fikrinizcə, qonaqlıqdan sonra Hacıleylək və Tülkü nə hiss etdilər?”, “Siz bu şəraitdə nə hiss edərdiniz?”, “Bu, düz idimi?” və s. bu kimi suallar verir”.*
Tərbiyəçi-müəllim bu situasiyada hansı iş üsulundan istifadə edir?
A) Tap-tapmaca
B) Müzakirə
C) Klaster
D) Problemli vəziyyət
E) Söz assosiasiyası

31. Verilənlərdən hansı məktəbəhazırlıq (5-6 yaş) qrupu üzrə idrakın inkişafına aid təlim nəticəsidir?
A) Masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir.
B) Hərəkətlərini musiqinin melodiyasına uyğunlaşdırır.
C) Təsvir prosesində fərqli rəng çalarlarından istifadə edir.
D) Əşyaları formasına, ölçüsünə və sayına görə qruplaşdırır.
E) Topu yerə vuraraq irəliləyir, topu hədəfə atır.

32. Aşağıdakılardan hansıları kiçik motor bacarıqlarının inkişafına xidmət etmir?

1. Qabda qarabaşaq və düyünü bir-birindən ayırmaq
2. Topa ayaqla zərbə endirmək
3. Qalın penoplasta geniş başları olan boltları açmaq
4. Növbə ilə tək və cüt ayaqla ip üzərindən tullanmaq
5. Kağızı qatlamaq, açmaq, əzmək və kəsmək
6. Gimnastika skamyasının üzərində yerimək və hoppanmaq

A) 1, 2, 3
B) 2, 4, 6
C) 1, 3, 5
D) 2, 4, 5
E) 3, 5, 6

33. Uşaqları yazı təliminə hazırlayarkən görülən işlərdən hansı düzgün verilməmişdir?

A) Bilək, əl hərəkətləri etdirmək, bilək əzələlərinin, barmaqların inkişafına kömək edən hərəkətlərə üstünlük vermək lazımdır.
B) Yazı təliminə diqqəti yönəltmək məqsədilə uşaqları bir müddət oyun və əyləncədən ayırmaq lazımdır.
C) Uşaqlara nöqtələrlə verilmiş nümunələrlə iş aparmaq, onlara karandaşla nöqtələri birləşdirərək xətlər və müxtəlif fiqurlar çəkməyi tapşırmaq lazımdır.
D) Uşaqlara hələ hərflərlə tanış olanadək sözdə səsləri ayırmağı öyrətmək lazımdır.
E) Uşaqların karandaşla müstəqil məşqlərinə düşünülmüş istiqamət verməklə tədricən hərflərin elementlərini yazmağı öyrətmək lazımdır.

34. Aşağıda verilənlərdən hansı oxu prosesi ilə bağlı doğru fikirdir?

A) Tərbiyəçi-müəllim oxu zamanı hekayəni yarıda saxlayaraq hekayədəki sözləri uşaqlara izah edir və öyrədir.
B) Tərbiyəçi-müəllim hekayəni eyni səs tonu ilə oxuyur.
C) Tərbiyəçi-müəllim hekayəni dinləmək istəməyən uşaqları məşğələdən kənarlaşdırır.
D) Tərbiyəçi-müəllim oxunun ifadəliliyini təmin etmək üçün orfoepik qaydaları gözləyir.
E) Tərbiyəçi-müəllim uşağın diqqətini oxu prosesinə cəlb etmək üçün hekayəni sürətli oxuyur.

35. *Məktəbəhazırlıq qrupunda (5-6 yaş) tərbiyəçi-müəllim 2.1.2. "Verilmiş mövzu ətrafında danışır və səbəb-nəticə əlaqələrini müəyyənləşdirir" standartını seçərək "Yaz fəsli" mövzusunu tədris edir. Məşğələni planlayaraq tərbiyəçi-müəllim təlim nəticəsini belə müəyyən edir: "Verilmiş mövzu ətrafında danışır və səbəb-nəticə əlaqələrini müəyyənləşdirir".*

Aşağıda verilmiş fikirlərin hansı bu situasiyanı düzgün şərh edir:

A) Tərbiyəçi-müəllim məşğələnin təlim nəticəsini düzgün müəyyən edib. Təlim nəticəsi həm uşaqların yaş səviyyəsini, həm də mövzunu əhatə edir.
B) Tərbiyəçi-müəllim təlim nəticəni düzgün müəyyən edib, çünki təlim nəticəsi standartda uşaqların bilik və bacarığına verilən tələbi yalnız təkrarlamalıdır
C) Tərbiyəçi-müəllim məşğələnin təlim nəticəsini düzgün müəyyən etməyib, çünki standartda uşaqların bilik və bacarığına verilən tələb bir məşğələdə reallaşa bilməz.
D) Tərbiyəçi-müəllim məşğələnin təlim nəticəsini düzgün müəyyən etməyib, çünki təlim nəticəsində əsasən keçirilən mövzunun adı qeyd edilməlidir.
E) Tərbiyəçi-müəllim məşğələnin təlim nəticəsini düzgün müəyyən edib. Təlim nəticəsi özündə inkişafyönümlülük və tələbyönümlülük prinsipini əks edib.

36. *Tərbiyəçi-müəllim qrup uşaqlarının diaqnostik dəyərləndirməsini aparır, bununla yanaşı, onların təlim nəticələri və fəaliyyətlərini daima izləyərək, qeydlər aparır, bu haqda uşaqların portfoliolarında məlumatları toplayır və valideynlərlə əlaqə saxlayır.*
Bununla tərbiyəçi-müəllim hansı didaktik prinsipi reallaşdırır?
A) Nəticəyönümlülük
B) Şəxsiyyətyönümlülük
C) Uşaqyönümlülük
D) İnkişafyönümlülük
E) Tələbyönümlülük

37. Yanlış fikri müəyyən edin:
A) Müxtəlif fəaliyyət mərkəzlərində oyunların qurulması məktəbəqədər təhsildə inteqrasiyanın ən yaxşı yollarından biridir.
B) Oyun uşaqların fiziki, koqnitiv, sosial və emosional sağlamlığında, rifahında əsas rol oynayır.
C) Süjetli-rollu oyunlar uşaqlardan yeni situasiyanın iştirakçısı olmağı tələb edir, bu səbəbdən yalnız 3-6 yaşlı uşaqlarla istifadə edilə bilər.
D) Tərbiyəçi-müəllim oyun zamanı problemi müdaxilə yolu ilə həll etmir, əksinə, kömək edir ki, problemi uşaqların özləri addım-addım həll etsinlər.
E) Tərbiyəçi-müəllim oyun zamanı vəsaitlərə yenilərini əlavə edərək və ya əvəzləyərək uşaqların oyunlara marağını saxlaya və ya artıra bilər.

38. İnklüziv təhsilin əsas məqsədi nədir?
A) Uşaqları qabiliyyət və bacarığına görə qruplaşdırmaq və təlimi buna uyğunlaşdırmaq.
B) Uşaqlara özlərini dəyərli hiss etdirən dəstəkləyici təlim mühiti yaratmaq.
C) Potensialı yüksək olan uşaqları kəşf etmək və akademik biliklərini inkişaf etdirmək.
D) Fiziki və cinsi xüsusiyyətə görə məktəbəqədər təhsildən yayınan uşaqları təlimə cəlb etmək.
E) Uşaqlara problemlərini mühitin öhdəliyi deyil, öz çətinlikləri kimi qəbul etdirmək.

39. Gəzinti haqqında verilən fikirlərdən hansı doğrudur?

1. Uşağın hərtərəfli inkişafı üçün şərait yaradır.
2. Körpələr və orta qruplarda gün ərzində 1 dəfə, böyük və məktəbəhazırlıq qruplarında 2 dəfə keçirilir.
3. Fiziki mədəniyyət məşğələsi olan günlərdə axşam saatlarında keçirilir.
4. Fiziki mədəniyyət məşğələsi olan günlərdə gəzinti zamanı azhərəkətli oyunlar təşkil olunur.

A) 1, 4
B) 2, 4
C) 2, 3
D) 1, 3
E) 3, 4

40. Tərbiyəçi-müəllim məşğələnin əvvəlində lövhədə şəkil nümayiş edərək uşaqlara aşağıdakı suallarla müraciət edir:



- Şəkildə nə görürsünüz?
- Şəkildə uşaqlar nə etmək istəyirlər?
- Sizcə, oğlan yolu keçmək istəyəndə hansı səhvlərə yol verir?
- Yolu təhlükəsiz keçmək üçün biz nəyi öyrənməliyik?"

Qeyd olunanlar hansı təlim üsuluna aiddir?

A) Tap-tapmaca
B) Şaxələndirmə
C) Söz assosiasiyası
D) Əqli hücum
E) Süjetli-rollu oyunlar

41. Açıq havada uzunmüddətli müşahidə haqqında verilənlərdən hansı yanlışdır?

A) Uzunmüddətli müşahidə bütün yaş qrupları üzrə təşkil edilir.

B) Uzunmüddətli müşahidə bütün fəsillərdə təşkil edilir.
C) Uşaqlara təbiətdə baş verən dəyişikliyi sistemli şəkildə öyrənməyə imkan verir.
D) Uşaqlarda baş verənlər haqqında dəqiq təsəvvür yaranır, əqli inkişafa müsbət təsir edir.
E) Tərbiyəçi-müəllim uzunmüddətli müşahidənin nəticələrini uşaqlarla birlikdə müzakirə edir.

42. Uşaqlarda düzgün qamətin formalaşdırılması üçün tərbiyəçi-müəllimin etdiklərindən hansı yanlışdır?

A) Məşğələ və müxtəlif fəaliyyətlər zamanı uşaqların boyuna uyğun oturacaqlar və masalar seçmək
B) Düzgün oturuş vərdişinin formalaşdırılması məqsədilə məşğələ zamanı sərbəst hərəkətlərini məhdudlaşdırmaq
C) Ağırlığın hər iki tərəfə bərabər düşməsi şərtilə uşaqlarda kitabları düzgün götürmək vərdişlərini formalaşdırmaq
D) Uşaqların gün rejiminin düzgün təşkili və təmiz havanı təmin etmək
E) Məşğələ ilə hərəkətli oyunların, gimnastikanın bir-birini əvəz etməsinə riayət etmək

43. *"Tərbiyəçi-müəllim uşağa vərəqdə iki nöqtəni birləşdirməyi, sonra isə nöqtələri birləşdirərək düz xətt çəkməyi tapşırır".* **Bu tapşırıqla tərbiyəçi-müəllim hansı məqsədi reallaşdırır?**

A) Kiçik motorikanı inkişaf etdirir, həndəsi fiqurlar haqqında təsəvvürü möhkəmləndirir.
B) Göz-əl koordinasiyasını inkişaf etdirir, uşağın əlini yazıya hazırlayır.
C) Uşağı savad təliminə hazırlayır, özünəgüvən hissi yaradır.
D) Göz-əl koordinasiyasını inkişaf etdirir, böyük motorikanı gücləndirir.
E) Uşaqda özünəinam hissi yaradır, tənqidi düşüncəni formalaşdırır.

44. Verilənlərdən hansı riyazi bacarıqların gündəlik rejimə inteqrasiyasına ziddir?

A) Uşaqların say və ölçmə anlayışlarını oyun və hərəkət zamanı təcrübə etməsi
B) Gün ərzində keçirilən fəaliyyətlərin ardıcıllığını gözləmək
C) Uşaqlar arasında rəqabət yaradan nəticə müqayisələri aparmaq
D) Say və uyğunlaşdırma fəaliyyətlərində konkret əşyalardan istifadə
E) Zaman anlayışını gündəlik rutinlərlə əlaqələndirmək

45. Refleksiya etməkdə məqsəd nədir?

A) Yeni bilik və bacarıq ötürmək
B) Uşağı təlim prosesinə cəlb etmək
C) Özünü qiymətləndirməni təmin etmək
D) Qazanılmış bilikləri nümayiş etdirmək
E) Keçmiş bilikləri xatırlatmaq

46. *Musiqi məşğələsində uşaqlardan bir neçəsi rəqs edərkən "İki addım sağa, dörd addım geri hərəkət et" tapşırığını yerinə yetirə bilmir.* **Tərbiyəçi-müəllim bu uşaqlarla hansı inkişaf sahəsi üzrə daha çox iş aparmalıdır?**

A) Estetik və yaradıcı inkişaf, İdrakın inkişafı
B) Yalnız estetik və yaradıcı inkişaf
C) Estetik və yaradıcı inkişaf, Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik
D) Yalnız sosial-emosional inkişaf
E) Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, Sosial-emosional inkişaf

47. *Tərbiyəçi-müəllim Məntiqi və riyazi təfəkkürün inkişafı məşğələsinin sonunda refleksiyanı aparır. Bunun üçün uşaqlara suallarla müraciət edir.* **Aşağıda göstərilən ifadələrdən hansı bunun üçün daha uyğundur:**

A) "Şəklə bax. Hansı şəkildə 5 rəqəminə uyğun əşyalar var?"
B) "Şəklə bax. Şəkildə təsvir olunan həndəsi fiqurların hansı kvadratdır?"
C) "Məşğələ zamanı yoldaşınla birlikdə öyrəndiyin bir şeyi qeyd et".
D) "Məşğələ zamanı nə üçün diqqətlə dinləmədin? Ona görə də suala səhv cavab verdin".
E) "Bu gün məşğələdə iki əşyadan hansının daha hündür olduğunu öyrənmişik. Siz artıq bu oyuncaqlardan hansının hündür olduğunu göstərə bilərsiniz".

48. Gəzintilərin təşkili haqqında verilən fikirlərdən hansı yanlışdır?

A) Gəzinti zamanı müxtəlif yaş qrupundan olan uşaqlar öz istədikləri kimi toplaşa və ya sərbəst oynaya bilər.
B) Gəzinti zamanı tərbiyəçi-müəllim uşaqların hərəki oyun oynamalarını təmin edir.
C) Gəzintinin müddəti uşaqların yaş qrupundan asılı olmadan müəyyənləşdirilir.
D) Düzgün və məqsədli şəkildə təşkil olunmuş gəzinti uşaqları hərtərəfli inkişaf etdirməyə kömək edir.
E) Gəzinti əqli tərbiyəyə təsir edir, uşaqlar ətraf mühit haqqında bir çox yeni təəssürat və biliklər əldə edirlər.

49. *"Tərbiyəçi-müəllim 5-6 yaşlı uşaqlara aşağıdakı şəkli göstərərək, qatarın hansı əşyalardan hazırlandığını soruşur. Sonra uşaqlara qrup otağında həmin əşyaları tapmağı və birlikdə qatarı düzəltməyi tapşırır".* **Tərbiyəçi-müəllim bu tapşırıqları verməklə uşaqlarda hansı bacarıqları inkişaf etdirir?**



A) Təşkilatçılıq, ünsiyyət
B) Əməkdaşlıq, araşdırma
C) Ünsiyyət, hafizə
D) Hesablama, əməkdaşlıq
E) Araşdırma, hesablama

50. *"Tərbiyəçi-müəllim uşaqlara əvvəlcə əlifbanı, daha sonra isə hərflərin səslənişini, onların birləşərək söz yaratmasını, sözlərin hecalara bölünməsini və nəhayət, digər sözlərə birləşməsini öyrədir. Bu yanaşma bir hissədən (hərf və səs) sözə, sonra isə mətnə keçir".* **Uşaqların oxumaq bacarıqlarının formalaşdırılmasında istifadə edilən bu yanaşma necə adlanır?**

A) Bütöv yanaşma
B) Sistemli yanaşma
C) Fonetik yanaşma
D) Morfoloji yanaşma
E) Leksik yanaşma

51. *"Tərbiyəçi-müəllim lövhəyə dairə çəkir və mərkəzə şəkil yapışdırır. Uşaqlar gördükləri şəkillə bağlı sözlər deməyə başlayırlar. Daha sonra tərbiyəçi-müəllim şagirdlərə mərkəzdə yapışdırılmış şəkildən başlayaraq hər növbəti şəkli onunla əlaqəli xətlərlə birləşdirməyi tapşırır".* **Bu prosesdə tərbiyəçi-müəllim hansı iş üsulundan istifadə edir?**

A) Tap-tapmaca
B) Suallar
C) Söz assosiasiyası
D) Şaxələndirmə (klaster)
E) Əqli hücum

52. Aşağıda verilən fikirlərdən hansı inklüziv təhsil mühitinə aiddir?

A) Tərbiyəçi-müəllim bütün uşaqların nəticələrini eyniləşdirmək məqsədilə uşağa dəstək planı hazırlayır.
B) Uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısı alınır.

C) Yalnız xüsusi ehtiyacı olan uşaqların cəmiyyətə daha tez adaptasiya olunması yollarını özündə ehtiva edir.
D) Yalnız əlilliyi olan uşaqların təlim ehtiyacları nəzərə alınır.
E) İnklüziv qruplarda yalnız korreksiyaedici pedaqogika ilə təlim aparılır.

53. *"Öyrətdiklərim uşaqların ümumi inkişafına töhfə verir, yoxsa formal xarakter daşıyır?"*
"Təlim zamanı uşaqların fəallığını, təlimin təşkili prosesinin effektivliyini necə artıra bilərəm?"
Verilən suallar tərbiyəçi-müəllimin hansı bacarığının inkişaf etdiyini göstərir?
A) uşaqların fəaliyyətinin düzgün dəyərləndirmə bacarığının
B) təlim prosesini refleksiya etmək bacarığının
C) özünü təqdim etmə bacarığının
D) uşaqlarla ünsiyyət qurmaq bacarığının
E) həmkarları ilə əməkdaşlıq bacarığının

54. *Meşəyə ekskursiya zamanı tərbiyəçi-müəllim uşaqlara ağacları müşahidə edərək onların obyektə görə yerini müəyyən etməyi tapşırır. Uşaqlardan biri tərbiyəçi-müəllimə deyir: "Şam ağacı məndən sağda, küknar ağacı isə məndən soldadır".*
Situasiyaya əsasən uşaqda fəzada səmtləşmənin hansı növü inkişaf etmişdir?
A) İstiqamətləndirici səmtləşmə
B) Özünə səmtləşmə
C) Başqasına nəzərən səmtləşmə
D) Özündən səmtləşmə
E) Obyektlərdən səmtləşmə

55. Uşaqlarda sıralama bacarığını dəstəkləyən nümunəni müəyyən edin.
A) "Yerdən 8 yarpaq toplayın. Neçə yaşıl, neçə sarı yarpaq topladınız?"
B) "Ətrafınızda dairəyə, kvadrata oxşayan hansı əşyaları görürsünüz?"
C) "Yerdən topladığınız 8 yarpağı kiçikdən böyüyə düzün."
D) "Beş uşaq topun arxasında, 5 uşaq topun qarşısında dayansın."
E) "Şam qozalarından ikisini kötüyün üstünə, üçünü kötüyün yanına qoyun."

56. *Su oyunu zamanı uşaqlardan biri "Su niyə bəzən yox olur?" deyə soruşur. Tərbiyəçi-müəllim bu sualdan "Suyun sirri" layihəsini başladır.* **Bu situasiya ilə bağlı yanlış olanı müəyyən edin.**
A) Layihə zamanı uşaqlar suyun xüsusiyyətlərini araşdıraraq müşahidə edir.
B) Bu layihə R.Emilia yanaşmasının əsas xüsusiyyətini əks etdirir.
C) Layihə müddətində tərbiyəçi-müəllim açıq suallar ünvanlayaraq prosesi istiqamətləndirir.
D) Valideyn və uşaqlar birlikdə "Evdə suya qənaətin yolları"nı müşahidə edir.
E) Layihə müddətində uşaqlarda sürətli yaddaş və əzbərləmə bacarıqları sürətlənir.

57. *Tərbiyəçi-müəllim uşaqları müşahidə edir və qeydlərini yazır:*
1. Turan oyunu bitirəndən sonra kubları özü səbətə yığır.
2. Arzu bu gün çox tənbəldir.
3. Aysel vaxtını açıq havada keçirmək istəyir.
4. Raul çox xoşbəxt görünür.
5. Amil pazlı təkbaşına yığır, bir dəfə səhv etdi və özü səhvini düzəldərək pazlı tamamladı.

Yazılanlardan hansı uşağın fəaliyyəti haqqında müşahidə faktları əks etdirilən qeydlərə aiddir?

A) 1,5
B) 2,5
C) 1,4
D) 2,3
E) 1,2

58. Verilənlərdən hansı məktəbəqədər təhsil müəssisəsində təhlükəsizlik qaydalarına uyğundur?

1. Müəssisədə yalnız tibb bacısı reanimasiya və ilk tibbi yardım prosedurlarını bilməlidir.
2. Müəssisələr mütləq müasir texnologiyalarla təchiz olunmalıdır.
3. Müəssisədə tüstü detektoru və yanğınsöndürən balonlar olmalıdır.
4. Qrup otaqlarında ilkin təcili yardım dəsti olmalıdır.
5. Müəssisədə mebel, avadanlıq və vəsaitlər uşaqların yaşına uyğun, saz, işlək vəziyyətdə olmalıdır.

A) 3,4,5
B) 1,3,5
C) 1,2,3
D) 1,3,4
E) 2,4,5

59. Dəyərləndirmə metodlarından biri olan müşahidə prosesi haqqında verilənlərdən hansı düzdür?

1. Tərbiyəçi-müəllim müşahidə qeydlərində obyektiv olmalı, buraya rəy və şərhlərini qeyd etməlidir.
2. Müşahidələrin qeydə alınması obyektiv məlumatların əldə olunması deməkdir.
3. Bu üsulu tərbiyəçi-müəllim uşaqlarla söhbət formasında keçirir.
4. Uşağın xüsusi diqqəti cəlb edən məqamları və maraqları aşkar edilir.
5. Müşahidə uşaqların fəaliyyətinə mane olmadan keçirilən prosesdir.

A) 2,4,5
B) 1,2,5
C) 2,3,4
D) 1,3,4
E) 1,2,3

60. *Eyni yaş qrupundan olan uşaqlar təsviri fəaliyyət zamanı hər hansı bir detalı çəkə bildiyi halda, bir neçə uşaq sadəcə qaralama edir.* **Bu halda tərbiyəçi-müəllim aşağıdakılardan hansı yanaşmanı seçməlidir?**

A) Uşağın bacarığı yaş normasından geri olduğu üçün onu daha çox məşq etdirərək ona digər uşaqların çəkdikləri nümunələri işlətməlidir.
B) Qaralama edən uşağın işini digər uşaqların işi ilə müqayisə etməli, fərqi göstərərək daha səliqəli və detallı çəkməsini tələb etməlidir.
C) Digər uşaqlarla müqayisə etmədən uşağın fərdi inkişaf tempini nəzərə almalı, sadə tapşırıqlardan başlayaraq mərhələli şəkildə təsviri bacarıqların inkişafına şərait yaratmalıdır.
D) Uşağa hazır şəkil nümunəsi verərək həmin şəkli olduğu kimi köçürməsini tapşırmalı və düzgün çəkənədək fəaliyyəti davam etdirməlidir.
E) Uşaq hələ detal çəkməyə hazır olmadığı üçün onu təsviri fəaliyyətdən kənarlaşdırmalı və yalnız sərbəst oyun zamanı rəsm çəkməsinə imkan verməlidir.